Əvvəli 8-ci səhifədə

# TƏNQİDİ REALİZM ƏDƏBİ CƏRƏYANININ ESTETİKASI MƏSƏLƏSİ

**I HİSSƏ**

## BİRİNCİ YAZI

### *Mirzə Cəlil nəsri və "qaranlıq dünya" probleminin yeni elmi açılışı*

T.Salamoğlu sovet hakimiyyəti illərində bir sıra sənətkarların yaradıcılığındakı realizmin sırf tənqidi səciyyə daşıması fikirlərini qəbul etmir və bu mövqedə dayanan ədəbiyyatşünasların hələ də o dövrün ideologiyasından kənara çıxa bilmədiklərini vurğulayaraq yazır: "Bu realizmin (tənqidi realizmin - R.M.) sırf tənqidi səciyyə daşıması, gerçəkliyin ancaq və ancaq inkar pafosu ilə bədii ifadəsinə çevrilməsi, onun estetikasının sözün bütün mənalarında "tənqidilik"ə müncər edilməsi mübahisə doğurur, birmənalı elmi həqiqət kimi qəbul oluna bilmir".

Ədəbiyyatşünaslıqda ilk dəfə irəli sürülən bu ideyanın birmənalı qarşılanmayacağını anlayan tədqiqatçı təbii ki, müəyyən əsaslı detallarla öz konsepsiyasının reallığını sübut etmək məcburiyyətində qalır. Odur ki, müəllif maarifçi realizm, tənqidi realizm, sosialist realizmi metodlarının mahiyyətlərini incələmək, onların məzmunu, xüsusiyyətləri, mərhələləri, müvafiq tarixi dövrlərdə sənətə verdikləri istiqamətləri paralel şəkildə təhlil etməyi zəruri saymışdır. O, tənqidi realizmin estetikasının müəyyənləşməsində, xüsusən də milli ədəbiyyatşünaslıqda rastlaşılan elmi mövqelərdəki müəyyən fikir və ideyalarla bağlı mübahisələrdən kənarda qala bilmir. M.Arif, C.Xəndan, A.Əfəndiyev, Y.Qarayev və bir sıra başqa nüfuzlu ədəbiyyatşünas alimlərin məsələ ilə bağlı fikirlərini növbəti dəfə diqqətlə incələmiş və gəldiyi qənaətin doğru olduğunu təkzibolunmaz faktlarla sübuta yetirmişdir.

Alim milli ədəbiyyatşünaslığın tarixində tənqidi realist satiranın ancaq inkar pafosu ilə məhdudlaşmadığına, onda güclü təsdiq pafosunun da olmasına dair fikirlərin mövcudluğu ideyasını irəli sürür. Fikirlərini isbat etmək üçük böyük satirik şairimiz M.Ə.Sabirin yaradıcılığına müraciət edir. Məsələ ilə bağlı özündən əvvəlki ədəbiyyatşünas alimlərin (C.Xəndan, A. Əfəndiyev, Y.Qarayev və b.) söylədikləri fikirləri elmi süzgəcdən keçirir, razılaşdığı və razılaşmadığı mübahisə doğuran mülahizələri diqqətlə təhlil edir və qətiyyətlə bildirir ki, ədəbiyyatşünaslığımızda M.Ə.Sabir də daxil olmaqla bütün tənqidi realistlərin öz estetik idealını inkar yolu ilə təsdiq etdiyi qəbul olunmuşdur; Sabir yaradıcılığına dair əksər tədqiqatlarda milli tənqidi realizmin ancaq inkar pafosuna əsaslanması fikri müdafiə edildiyi üçün natamamlığa yol verilmişdir. O, yazır ki, bu mövqe tənqidi realistlərin bədii mətn materiallarının mahiyyətini tam açmağa mane olur. Ona görə də klassiklərimizin bədii əsərlərini müstəqillik dövrünün ədəbiyyatşünaslıq düşüncəsi ilə təhlil etməyi vacib sayır.

T.Salamoğlu kitabda C.Məmmədquluzadənin yaradıcılığının təhlilinə xüsusi diqqət yetirir, yazıçının öz yaradıcılığında qaranlıq bir dünyanı, cəhalət, dini fanatizm içində boğulan bir aləmi- başdan ayağa "zülmət səltənəti"ni təsvir etdiyi qənaətinə əsaslanan sovet dövrü ədəbiyyatşünaslarının bədii mətn həqiqətlərindən çox, ədibin "Xatiratım" memuarında dövrə və mühitə verdiyi xarakteristikanı əllərində bayraq edərək, müəllifin xatirələrinə əsaslanaraq siyasi rejimin ideologiyasının təsiri ilə deyilmiş bəzi mülahizələri müəllifin həyata baxışı kimi təqdim etmələrinin tamamilə yanlış olduğunu tam aydınlıqla ədəbi ictimaiyyətə çatdıra bilmişdir. C.Məm-mədquluzadə şəxsiyyətinə və yazıçının yaradıcılığına bu cür yanaşmanın əsassız olduğunu sübut etmək üçün M.Rəfili, H.Səmədzadə, Ə.Sultanlı, Ə.Mirəhmədov və başqa tanınmış ədəbiyyatşünas alimlərin müxtəlif illərdə çap olunmuş məqalələrindən gətirdiyi sitatlarla professor T.Salamoğlu yazıçının "gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm" fikrinə aydınlıq gətirməyə səy göstərmiş, böyük sənətkarın öz əsərində milli varlığı bu cür səciyyələndirməsinin, bu fikrin kökündə, mahiyyətində nələr dayandığının səbəbini müəyyənləşdirməyə, bəlkə də, ədəbiyyatşünaslığımızda ilk dəfə təşəbbüs göstərmişdir. Belə bir vacib məsələnin əhəmiyyətinə varmayan sovet dövrü ədəbiyyatşünasları haqqında alim təəssüf hissi ilə yazırdı: "Əsasən "Xatiratım"dan start götürən "zülmət və cəhalət dünyası"" tendensiyası bir tədqiqatçının yaradıcılığından o birinə keçərək, bütövlükdə sovet dövründə Mirzə Cəlil yaradıcılığı haqqında yazan tədqiqatçıların, demək olar ki, hamısının əsərində bu və ya digər dərəcədə yer almış, sənətkarın əsərlərini təhlil və qiymətləndirmənin açarına çevrilmişdir". Bu tendensiyanı qəbul etməyən alim tamamilə yeni bir konsepsiya irəli sürür. Onun fikrincə, "Xatiratım"da önə çəkilən "qaranlıq dünya" ideyası ideologiyanın milli keçmişlərə verdiyi "zəhərli katorqa həyatı" xarakteristikası ilə üst-üstə düşür. Mirzə Cəlil yaradıcılığında bu cəhətin qabardılması onun təsvir, təhlil obyektinə çevirdiyi zamanla müqayisədə sovet dövrünün və cəmiyyətinin üstünlüklərini, "zülmət dünyası" ilə müqayisədə işıqlı bir dünyanın qurulması haqqında həqiqətləri ictimai şüura yeritmək üçün əlverişli təbliğata imkan yaradırdı".

T.Salamoğlu kitabda böyük sənətkarın içindən çıxdığı tarixi varlığı büsbütün "qaranlıq dünya", "zülmət səltənəti" kimi xarakterizə etməsinin ictimai-siyasi səbəblərinin və fəlsəfi-ideoloji əsaslarının nədən ibarət olduğunu aydınlaşdırmağı qarşısına məqsəd qoyur, bu sahədə çoxsaylı faktları təhlil etməklə həqiqəti üzə çıxarmağı özünün ziyalılıq borcu hesab edir. İctimai-siyasi səbəbləri öyrənməyə çalışan alim keçən əsrin 20-ci illərinin sonlarında sovet rejiminin ictimai-siyasi, ədəbi-mədəni həyatında baş verən reallıqların, ədəbi-mədəni həyatda proletar ideologiyasının hakim ideologiyaya çevrilməsi üçün atılan addımların törətdiyi fəlakətlər müqabilində yazıçıların öz prinsiplərindən dönməyə məcbur olması qənaətinə gəlir. Sovet rejiminə uyğunlaşa bilməyən Mirzə Cəlil ağır sarsıntılar keçirərək dünyasını dəyişir. T.Salamoğlu haqlı olaraq yazır ki, "düşünmək lazım gəlmirmi ki, çar rejimi dövründə milyonlara öz zəkasından işıq paylayan, bunu əməli işə çevirən Mirzə Cəlilin sovet dövründə nəinki idealları, arzuları, hətta şəxsi həyatı belə zülmətlərə qərq oldu. Sovet rejimi dövründə idealları daşa dəyib, çiliklənən, geniş dünyagörüşə malik olan C.Məmmədquluzadənin "Sizi deyib gəlmişəm" deyib üz tutduğu və son nəticədə "millətlər içində öz imzası"nı təsdiq edəcəyinə inandığı millətin tarixi varlığını büsbütün "qaranlıq və cəhalət" dünyası kimi xarakterizə etməsinin T.Salamoğlu məntiqi cəhətdən mümkün olmadığını bildirərək yazır ki, "böyük sənətkarın ideoloji basqı altında məcburən söylədiklərinə yox, .tarixin həqiqətlərinə və bu həqiqətlərin onun əsərlərindəki bədii həllinə nəzər yetirmək haqqında söhbət gedən zamanla bağlı bizə daha obyektiv məlumat verə bilər".

Kitabda C.Məmmədquluzadənin yaradıcılığına yeni baxışın zəruriliyi ideyasına böyük önəm verən T.Salamoğlu İ.Həbibbəylinin sənətkarın "bədii-publisistik irsinin yenidən, milli mövqedən təhlil edib araşdırılması" haqqında fikirlərini xüsusi vurğulayaraq akademikin 2009-cu ildə nəşr etdirdiyi təkmilləşdirilmiş "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" fundamental monoqrafiyasını təhlil etməyi qarşısına məqsəd qoyur və bildirir ki, müəllif kitabda C.Məmmədquluzadənin həyatı və yaradıcılığı, mühiti və müasirləri ilə bağlı məsələlərə yeni konsepsiya əsasında elmi həlli verir. Bu yeni konsepsiyanın mahiyyətinin nədən ibarət olduğunu açıqlayan T.Salamoğlu vurğulayır ki, "İ.Həbibbəyli sovet ədəbiyyatşünaslığının elmi-ideoloji konsepsiyasının əsasında dayanan "qaranlıq dünya" probleminə müəyyən qədər elmi aydınlıq gətirir, bu problemi obyektiv və milli mövqedən şərh edə bilir. İ.Həbibbəyli məsələyə münasibət bildirərkən öz mövqeyini nə qədər yumşaltmağa çalışsa da, onun mülahizələri sovet ədəbiyyatşünaslığının mövqeyini təkzib etməyə istiqamətlənir. Tədqiqatçının təkzibləri obyektiv elmi mövqe səviyyəsinə qalxa bilir".

İ.Həbibbəylinin monoqrafiyasındakı çoxsaylı yeni faktların zəngin-liyinə əsaslanan alim yeni konsepsiyanın inkişaf etdirilməsi zəruriliyindən söhbət açarıq yazır: "Nəticə etibarı ilə bütün bunlar Mirzə Cəlilin XIX əsr dünyasına aid edilən "zülmət"i yararaq, işıqlı bir dünyaya açılan qapıları bizim ictimai, ədəbi-mədəni və elmi düşüncənin üzünə taybatay açır".

İ.Həbibbəylinin monoqrafiyasında T.Salamoğlunun diqqətini çəkən yeni konsepsiyanın elmiliyini və həqiqi metodoloji məzmununu ortaya qoyan mühüm amillərdən biri də akademikin mənsub olduğumuz dinə və din xadimlərinə münasibətdə tam obyektiv, milli zəmində və eyni zamanda, ümmətçilik prizmasından baxış ortaya qoymasıdır. O, haqlı olaraq qeyd edir ki, İ.Həbibbəyli din xadimlərinə, onların bədii obrazlarına və bütövlükdə İslam dininin ictimai həyatımızda oynadığı rola, dünyagörüşümüzə təsirinə tam fərqli mövqedən yanaşmışdır. Buna görə də onun formalaşdırdığı konsepsiya müasir Azərbaycan ədəbiyyatşünaslığının elmiliyini və metodoloji məzmununu daha da gücləndirir. T.Salamoğlu yazır: "Müəllif bu metodoloji yanaşmanı sovet ədəbiyyatşünaslığının dini mühiti "dindar fanatik mühit" kimi mənalandırmasının qeyri-obyektivliyini, bu mənalandırmanın mühitin obyektiv məzmununu əks etdirməkdən büsbütün uzaq olduğunu, müstəqillik dövrünün ədəbiyyatşünaslığının proqram-məramnaməsinə zidd mahiyyət daşıdığını uca səslə elan edərək gerçəkləşdirir. İ.Həbibbəyli sübut edə bilir ki, atanın dindarlığı ailənin maarifə, təhsilə, elmə gedən yolunu bağlamır. Əksinə, dindar ata öz evindən dünyəvi təhsilə geniş qapı açır".

"Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasını təhlil edərkən İ.Həbibbəylinin zəngin arxiv materiallarından istifadə edərək müasirlərinin ictimai, maarifçi, ədəbi-mədəni və pedaqoji fəaliyyətlərinə yüksək qiymət verməsi, onların bir qisminin bəy, xan, ağa titullarına aydınlıq gətirməsini T.Salamoğlu akademikin dərin elmi düşüncəsinin nəticəsi kimi dəyərləndirir və tədqiqatın elmi və metodoloji dəyərini artıran cəhətlərdən biri hesab edir. Kitabda oxuyuruq: "İsa Həbibbəyli sübut edir ki, vətən və millət naminə aramsız fəaliyyətlərində insanları yanlış bəylik, ağalıq, xanlıq titulları birləşdirmir. Əksinə, bəylər, ağalar, xanlar millət və vətən yolunda mübarizə amalı ilə birləşir, bu amalla sona qədər fəaliyyət göstərirlər".

T.Salamoğlunun öz kitabında akademikin monoqrafiyasında "Molla Nəsrəddin" və "Füyüzat" jurnallarına, eləcə də Mirzə Cəlil və Ə.Hüseynzadə münasibətlərinə yer ayırmasının mahiyyətini izah etməsi yerinə düşmüşdür. Çünki müasir ədəbiyyatşünaslıqda bu məsələ mübahisə obyekti olmasa da, onları "düşmən qüvvələr" kimi təqdim etməyə cəhd göstərənlərlə rastlaşırıq. Bu mənada İ.Həbibbəylinin gəldiyi nəticələri elmi və metodoloji cəhətdən əsaslandıran T.Salamoğlu yazır: "Bu gün C.Məmmədquluzadə və Ə.Hüseynzadənin tarixi münasibətlərinin, onların təmsil etdiyi ədəbi hərəkatların "əks cəbhələri təmsil edən qüvvələr" yox, bir-birinin tamamlayan ədəbi qüvvələr olması metodoloji baxımdan ədəbiyyatşünaslığımızda mübahisə obyekti deyildir. Bu nöqteyi-nəzərdən monoqrafiyada məsələnin qoyuluşu yox, ona verilən elmi həll, problemin elmi cəhətdən əsaslı şəkildə irəli aparılması, bütün tərəf və istiqamətləri ildə açılması xüsusi maraq doğurur".

**(Davamı var)**